https://doi.org/10.59849/3006-2403.2023.9.3
UOT 82-1. 512. 162

*Əlimuxtar Həsən oğlu Muxtarov*
*AMEA Gəncə Bölməsi*
*Nizami Gəncəvi Mərkəzinin direktoru,*
*Filologiya üzrə fəlsəfə doktoru*
*Gəncə ş. H.Əliyev pr., 419*
*E-mail: nizamicenter1141@gmail.com*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİ GƏNCƏYƏ VƏ NİZAMİ GƏNCƏVİYƏ BAĞLAYAN MADDİ-MƏNƏVİ BAĞLAR

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə bağlayan çox dərin maddi və mənəvi tellər mövcud olmuşdur. Ulu Öndər Heydər Əliyev Gəncəyə Azərbaycan xalqının tarixini, ədəbiyyatını, mədəniyyətini özündə əks etdirən tarixi bir diyar kimi baxırdı. Bu baxımdan Ümummilli Lider Heydər Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi şəxsiyyətinə, irsinə olan sonsuz məhəbbəti də məhz bu məfkurə üzərinə köklənmişdir. Sovet imperiyasının milli ideoloji mətləbləri olduqca həssaslıqla idarə etdiyi bir dövrdə Nizami Gəncəvinin yuvarlaq olmayan yubileyinin keçirilməsi Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının qarşısında ən böyük xidmətlərindən biri oldu.*

*Məhz məqalədə bu kontekst ətrafında cərəyan edən hadisələrdən, xüsusilə Ümummilli Lider Heydər Əliyevin uşaqlıq illərindən Gəncədə keçirdiyi günlər və sonra da Ölkə rəhbəri kimi Gəncəyə səfərləri, Nizami Gəncəvi məqbərəsini ziyarət etməsi kimi mühüm hadisələr müstəvisində yaşanan hadisələrdən bəhs olunur.*

*Açar sözlər*: Nizami Gəncəvi, Heydər Əliyev, Gəncə, çinar, tarix

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: “Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir... O bu torpaqda yaşayıbdır, bu torpaqda yazıbdır. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!.. Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə var, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır, özü də yaşayır”.

Amma bütün bunlarla yanaşı, Ulu Öndər Heydər Əliyev Gəncənin klassik mütəfəkkirləri kontekstində təkcə Nizami Gəncəvi ilə kifayətlənməyərək qeyd edirdi: “Gəncə təkcə Nizami Gəncəvi ilə məşhur deyil. Gəncə Azərbaycan xalqının çox böyük, dahi şəxsiyyətləri ilə məşhurdur. Gəncə Azərbaycanda ilk dəfə 1918-ci ildə dövlət müstəqilliyini elan edən Xalq Cümhuriyyətinin ilk yerləşdiyi şəhər olubdur. 1918-ci ildə Azərbaycanın mütəfəkkir insanları, vətənpərvər insanları Tiflisdə Azərbaycanın dövlət müstəqilliyini elan ediblər və Azərbaycan dünyaya müstəqil dövlət kimi bəyan olunubdur. Ancaq o vaxt Bakı düşmən işğalı altında olduğuna görə, onlar Bakıya gedə bilməyib, gəlib Gəncədə yerləşiblər. Və bilirsiniz ki, həmin Xalq Cümhuriyyətinin yaranmasında çox dəyərli fəaliyyət göstərmiş və Xalq Cümhuriyyətinin yaratdığı ilk hökumətin üzvlərinin bir neçəsi məhz gəncəlilər olubdur, Gəncə torpağında doğulmuş, yaşamış və Azərbaycanın müstəqilliyi uğrunda çalışmış insanlar olubdur” [3, s. 107-108].

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvini Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə bağlayan olduqca qədim, tarixi və ilahi bağlar, rəmzlər mövcuddur. Akademik Teymur Kərimli “Heydər Əliyev və klassik irs” monoqrafiyasında

yazır: "Və bu da əlamətdardır ki, o zaman Nizami ilə bir sırada böyük Hüseyn Cavidi də xalqa qaytaran, onun milli müstəqillik dövründəki coşqun həyatına on-on beş il əvvəldən peyğəmbərlik missiyası səviyyəsində hazırlaşan məhz Heydər Əliyev oldu. Kim bilir, bəlkə də, iki nəhəng klassikin qayıdışı, elə tarixin təkərinin dönüş istiqamətini dəqiq hesablamış dahi siyasət və diplomatiya klassiki Heydər Əliyevin bir müddətdən sonra baş verəcək öz qayıdışının baş məşqi, prelüdiyası idi? Bu suala da yəqin ki, heydərəliyevşünaslığın növbəti mərhələsində bizdən sonra gələn tədqiqatçılar nəsli elmi tutumlu cavab tapacaqdır" [5, s. 4]. Bəli, yaşananların hər biri ilahi rəmzlər və qədərlərdir.

Məhz həyatı uca dərgah qatında tamamilə ilahi rəmzlərlə, simvollarla dolu olan Ulu Öndər Heydər Əliyevin Nizami Gəncəviyə olan münasibəti də hər şeydən əvvəl akademik Teymur Kərimlinin gətirdiyi arqumentlərlə olduqca zəngindir. Ulu Öndəri Nizami Gəncəviyə yaxınlaşdıran, gətirən ilk yol xəritəsi belə olmuşdur. Naxçıvan-Gəncə-Bakı-Gəncə. Ulu Öndəri dinləyək: "Mən Gəncəni hələ uşaq ikən sevmişəm. Düzdür, mən Gəncədə doğulmamışam, ancaq uşaqlıq illərimin bir dövrünü Gəncədə keçirmişəm. Mən 70-ci illərdə Gəncəyə gələndə bunu bir dəfə demişdim, bəlkə də, bəziləri unudublar. Mənim böyük qardaşım, mərhum akademik Həsən Əliyev Gəncədə Kənd Təsərrüfatı İnstitutunda təhsil almış, sonra isə Bakıya köçmüşdür. O, öz həyatını Gəncə ilə bağlamış, Gəncədə evlənmiş, həyat yoldaşı gəncəli olmuşdur. Qardaşım burada yaşayarkən atam məni onun yanına göndərdi ki, get bir müddət Gəncədə yaşa, orada da oxu. Mən bir il Gəncədə, Şah Abbas Məscidinin həyətində olan məktəbdə oxumuşam. O vaxt mənim on bir yaşım var idi, beşinci sinfi burada bitirmişəm. O illər yadımdan çıxmayıbdır. Mən o vaxt Bakını hələ görməmişdim. Tramvayı ilk dəfə Gəncədə görmüşəm. Hətta o vaxt tramvaya biletsiz də minirdik və bəzən bizi qorxudurdular, tramvay gedə-gedə özümüzü atırdıq. Bir dəfə belə halda mən tramvayın təkərləri altına düşmək təhlükəsindən qurtarmışam. Bütün bunları heç vaxt unutmuram. Gəncənin o vaxtkı görünüşü bu gün də mənim yadımdadır. Bu gün biz Nigar Rəfibəylinin abidəsinin açılışına gedəndə mən gördüm ki, Sərdar bağına giririk. Sərdar bağı qədim bağdır, Gəncənin iftixarıdır. Orada olan çinar ağacları, gözəllik qədim dövrdən Gəncə əhalisinə böyük xidmətlər göstəribdir. Xatirimdədir, vaxtilə orada İsrafil Məmmədovun abidəsini ziyarət etmişdim. Bu gün yenə də Sərdar bağına getdim, Nigar Rəfibəylinin abidəsinin açılışında iştirak etdim" [3, s. 144].

Ulu Öndər Heydər Əliyevi Gəncəyə, Nizami Gəncəviyə bağlayan maddi-mənəvi tellərdən biri də yuxarıdakı xatirəsində də xatırladığı kimi Gəncə çinarlarıdır. Çinar Gəncənin əyilməzlik simvollarından biridir. Təsadüfi deyildir ki, Azərbaycanın istiqlal şairi Əhməd Cavad da vaxtilə Gəncədə yaşayarkən qələmə aldığı "Gəncəm hey" şeirində bu qəhrəmanlıq, əbədiyaşarlıq simvoluna toxunmuşdur.

Ziyadxan evləri cərgə-cərgədi,
Hər çinar qoynunda bir sərkərdədi!
Sazında, sözündə pərdə-pərdədi
Qovğalı illərin, Gəncəm,
Gəncəm, hey!..

Bildiyimiz kimi çinar ulu Gəncənin qəhrəmanlıq, ucalıq rəmzidir. Hətta el arasında gəncəli olmağın əsas şərtlərindən biri də məhz çinar əkmək olmuşdur. Əhməd Cavad da bu həqiqətə sadiq qalmaqla yanaşı, Gəncənin küçələrində göylərə baş ucaldan çinarları bu yurdun uğrunda vuruşan, onu qoruyan, can qoyan sərkərdələrə bənzədirdi [8, s. 87-88].

Ulu Öndər Heydər Əliyev də illər sonra Nizami Gəncəvinin yurdu olan Gəncə ilə bağlı olan fəaliyyət və xatirələrində yenidən çinar mövzusuna qayıdır. Çünki Ümummilli Lider

yaxşı bilirdi ki, Gəncənin tarixə işıq tutan açar sözləri Gəncədir, Nizami Gəncəvidir, Gəncə çinarlarıdır, Azərbaycan Xalq Cümhuriyyəti kimi tarixi salnamələrdir.

"Mənə çinar gətirin. Çünki çinar ucalıq əbədilik rəmzidir. Mən Gəncədə çinar ağacı əkəcəyəm. Hamı duruxmuşdu. Çünki Heydər Əliyev "Xatirə parkı"nda əkmək üçün ona gətirilən şam ağacı tingini bir kənara qoyub bu sözləri demişdi. Qəribə bir çaşqınlıq yaranmışdı. Amma təşkilatçılar tez də vəziyyətdən çıxa bilmişdilər. Çinar tingi gətirilmişdi. Heydər Əliyev tingi alıb ehmalca çalaya salmış, tələsmədən, səliqə ilə üstünü torpaqlamış, dolu su vedrəsini götürüb sulamışdı. Sonra da ətrafına toplaşmış gəncəliləri mehriban nəzərləri ilə süzərək: "Gəncəyə çinar yaraşır"– deyib gülümsəmişdi... Bu unudulmaz mənzərə düz 42 il əvvələ, 1980-ci il dekabrın 16-na təsadüf edir. Onda Heydər Əliyev Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) "Şərəf nişanı" ordenini təqdim etmək üçün Gəncəyə gəlmişdi. Eyni zamanda, məqsədi özünün təşəbbüsü və göstərişi ilə şəhərin "Quru Qobu" deyilən boş bir düzənliyində salınması nəzərdə tutulan və sonralar "Xatirə parkı" adlandırılacaq əraziyə gedərək oradakı vəziyyətlə tanış olmaq və təbii ki, ağac əkməklə nəhəng bir parkın bünövrəsini qoymaq olmuşdu.

Parkda 2012-ci ildə yenidənqurma işlərinə başlanılmışdır. Park-kompleksinin açılışı isə 2014-cü il yanvarın 21-də baş tutmuşdur. Parkda 350 mindən çox ağac və bəzək bitkisi əkilmişdir. Bu ağacların əksəriyyətini Şərq çinarı, şam, küknar, cökə, meyvə ağacları və müxtəlif bəzək bitkiləri təşkil edir. Parkın ərazisini Baş xiyaban birləşdirir. Baş xiyabanın eni 53 metr, uzunluğu isə 1400 metrdir. Parkda Azərbaycanın dövlət xadimlərinin heykəl və büstləri var. Kompleksdə Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin, Mirzə Şəfi Vazehin, Səməd Vurğunun və başqalarının heykəl və büstləri də var. Zəfər tağı kompleksin girişindədir. Tağ 15 iyun – Azərbaycan xalqının milli qurtuluş gününün rəmzi olaraq ucaldılıb. Eni 20, uzunluğu 50, hündürlüyü isə 38 metr olan Zəfər tağının, ətrafı seyr etmək üçün 30 metr hündürlüyündə meydançası var. Heydər Əliyev Mərkəzi perimetr boyunca səkkizbucaqlı sütunlarla əhatə olunub. Üçmərtəbəli mərkəzdə şüşədən günbəz quraşdırılıb və günbəzdə Azərbaycanın xəritəsi əks olunub.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Ulu Öndərin ənənəsini davam etdirərək Heydər Əliyev Mərkəzinin qarşısında çinar ağacı əkmişdir. 2014-cü il, yanvarın 21-də Park kompleksi haqqında danışarkən dövlətimizin Rəhbəri demişdir: "Biz bu möhtəşəm Heydər Əliyev Mərkəzinin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi və bütün gəncəliləri ürəkdən təbrik edirəm. Düz iki il bundan əvvəl – 2012-ci il yanvarın 21-də bu parkın təməl daşı qoyulmuşdur. Gözəl təsadüfdür ki, düz iki ildən sonra biz parkın və möhtəşəm mərkəzin açılışını qeyd edirik. Bu parkın və mərkəzin yaradılması çox böyük hadisədir. Möhtəşəm mərkəz ulu öndərin xatirəsinə gözəl abidədir, burada ulu öndərin həyat və fəaliyyətinin bütün anları, bütün mərhələləri əks olunub. Eyni zamanda, istənilən beynəlxalq tədbirin keçirilməsi üçün də gözəl imkanlar var" [6, s. 1].

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqa bağışladığı ömrün Naxçıvandan başlayıb Nizami yurdunda belə bir əzəmətə, təntənəyə, tarixin bir parçasına, ən əsası da Nizami Gəncəviyə qovuşması təsadüf olmayıb, ilahi nizamın Nizami Gəncəvi təntənəsidir.

Jurnalist Zakir Muradovun da Ulu Öndər Heydər Əliyevin ibtidai təhsilinin bir neçə sinfini Gəncədə almasını, Gəncəyə, Nizami Gəncəviyə bağlılığını ilahi qüdrətin təcəllisi kimi xarakterizə edir: "Gəncə və çinar anlayışı Heydər Əliyevin həyatında hələ uşaqlıqdan iz salmışdı desək, yəqin yanılmarıq. 1935-36-cı illərdə gənc Heydər Əliyev 5-6-cı siniflərdə təhsilini Gəncənin 1 saylı məktəbində alıb. Həmin vaxt bu məktəb şəhərin lap mərkəzindəki Şah Abbas Məscidi kompleksinə daxil olan və 300-400 il yaşlı qədim çinar ağacları ilə əhatələnmiş kərpic "mədrəsə binası"nda fəaliyyət göstərirdi. Kim bilir, bəlkə Heydər Əliyev

1980-ci ilin işıqlı bir qış günüdə Gəncənin "Xatirə Parkı"nda ağac əkən zaman onun üçün hazırlanmış şam ağacını geri qaytararaq "Mənə çinar gətirin" deyərkən, öz məktəbli dostları ilə əzəmətli çinarların altında dərs hazırladıqları çağları da yada salıbmış...” [7, s. 1].

Əbədiyyət, ədəbiyyat ünvanı olan Ulu Öndər Heydər Əliyev 1980-ci ildə Nizami yurdunda çinar əkərkən yaşanan daha bir tarixi olay bu konteksti daha da zənginləşdirir, dolğunlaşdırır, doğmalaşdırır. Azərbaycan Dövlət Aqrar Universitetinin professoru, mərhum Rübail Allahverdiyev xatirələrində yazır: “O, çinarı səliqə ilə əkdi, dibinə su tökdü və dedi ki, onu qorumağı biz gəncəlilərə tapşırır. Sonra kənarda dayananların içində məni görüb yanına çağırdı. "Rübail, burda sənin Nizami, Gəncə və Çinar haqda şeirin lap yerinə düşər" - dedi. Mən də bir daha Heydər Əliyevin neçə il əvvəl onun da iştirak etdiyi Nizami poeziya günlərində söylədiyim şeirə necə həssaslıq nümayiş etdirdiyinə könüldən şad olaraq, böyük bir şövqlə o misraları səsləndirdim:

Kəpəz Gəncəmizin söz heykəlidir,
Göy göl qəlb aynası, safdır, incədir.
ÇİNAR Nizaminin öz heykəlidir,
Harda çinar varsa, ora Gəncədir!" [7, s. 1].

Bu mənzərə bir daha Ümummilli Liderin istər klassik, istərsə də, müasir ədəbiyyata, ədəbi prosesə, ədəbiyyat, mədəniyyət və mənəviyyat xadimlərinə necə bağlı olduğunu və ən taleyüklü işlərlə məşğul olarkən də onları unutmadığının bariz nümunəsidir. Şeirin məzmunu Ulu Öndər Heydər Əliyevi Gəncəyə bağlayan maddi-mənəvi tellərlə olduqca zəngin olmaqla yanaşı, həm də o notlar üzərində qurulmuşdur.

Ulu Öndər Heydər Əliyevi Gəncəyə, Nizami Gəncəviyə bağlayan tellər sadəcə ədəbi, mədəni tellər üzərində qurulmamışdır. Ulu Öndər eyni zamanda siyasi hakimiyyətinin hər iki mərhələsində qədim Nizami yurduna, sakinlərinə böyük rəğbətlə, diqqətlə yanaşmış, Gəncənin nəinki Zaqafqaziyada, dünyada inkişaf etmiş sənaye, ədəbiyyat, mədəniyyət, turizm şəhəri kimi tanıdılmasında əvəzsiz rol oynamışdır. “Mən Azərbaycana rəhbərlik etdiyim dövrdə 1969-cu ildən başlayaraq Gəncə şəhərinin inkişafını əsas vəzifələrimdən biri hesab etmişəm” [3, s. 30].

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Gəncə şəhərinə 7 dəfə səfər etmiş və bu səfərlərin hər biri sakinlərin qəlbində əbədi, unudulmaz görüşə çevirilmişdir. Çünki bu səfərlərin hər biri əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəldiyi kimi, eyni zamanda Gəncənin tarixinin, ədəbiyyatının ümum Azərbaycan kontekstində milli kökə, özünüdərkə xidməti kimi dəyərləndirilmişdir.

1970-1977-1980-1993-1993-1998-2000-2002-ci illərdə Ulu Öndərin Gəncə şəhərinə etdiyi səfərlər ölkəmizdə milli-mənəvi dəyərlərimizin qorunaraq yaşadılması, maddi mədəniyyət abidələrinin bərpa edilməsi, dini və əxlaqi irsimizin mühafizə olunması olunmasına yönələn səfərlər idi.

Mən iki rayonun yaradılması haqqında Moskvadan qərar alınmasına nail oldum. Çünki o vaxt bunu müstəqil həll edə bilmirdik. Bu rayonlara ad vermək lazım idi. Bakıda da əlavə bir rayon yaratdıq. Mən göstəriş verdim ki, adları müəyyən edin. Moskvada olanlar və Azərbaycanda olub millətinin mənafeyini anlamayanlar layihələr hazırlamışdılar ki, o 3 rayona Sovet, Proletar və Zavod adları verək. O vaxt bizim ikinci katib rus idi. o, bunları hazırlamış və Moskva ilə də razılaşdırmışdı. Mənim yanımda işləyən azərbaycanlı adamları çağırdım, dedim, utanmırsınız, ayıbınıza gəlmir? Nə qədər Sovet, Proletar olar? Axı biz yeni rayonlar yaradırıq, öz tariximizi əks etdirməliyik. Dedim ki, Gəncənin adı bərpa olunmalıdır. Açıq danışım, biz o vaxt Kirovabad adını dəyişdirib Gəncə qoymaq imkanına malik deyildik. Ancaq mən buna yol açdım. Burada yaradılan iki rayondan birinə Gəncə, o birisinə də Kəpəz

adı verdim. Mən bununla da qane olmadım. Bakıda yaradılan yeni böyük rayona Nizami adını verdim. Beləliklə, qədim Gəncənin adını bərpa etdik, Gəncə öz tarixi adını ald.. Ancaq xatirinizdədir, hələ bu adı almamış burada Yeni Gəncə yaşayış massivi yaradıldı. Mən gəldim, orada ilk ağacları basdırdıq, ilk daşları qoyduq. Orada böyük binalar tikildi və qədim Gəncənin yanında bir Yeni Gəncə yarandı. Bunların hamısı Azərbaycanın tarixinə, milliliyinə və Gəncənin tarixinə olan xidmətlərimdir" [3, s. 23].

Xüsusilə bu məqamda mühüm bir faktı qeyd etmək yerinə düşər. 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyev Respublikanın siyasi rəhbərliyində təmsil olunmadığı halda, müstəqilliyini yenicə qazanmış və yenicə də itirməklə üz-üzə olan Ölkəmizin çox ağır vəziyyətində Gəncədə baş vermiş vətəndaş qırğını ilə bağlı bu şəhərə səfər edir. Hansı ki, həmin dövrdə hakimiyyətdə olan iqtidardan heç kim cürət edib Gəncəyə gəlmirdi.Ölkədə vəziyyət gərginləşmiş, Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə qarşı-qarşıya idi. Bu vaxt Heydər Əliyev Gəncəyə müdrik el ağsaqqalı kimi səfər edir. Bu səfər bir növ qurtuluş missiyası daşımaqla, ölkədə yaramış anlaşmazlığın həlli olur. Vətəndaş müharibəsinin qarşısı alınır.

Ulu Öndərin 30 jurnalistin iştirakı ilə Gəncəyə baş tutan səfəri tədricən ölkədə yaradılmış daxili sabitliyin təməlinə çevrildi. Heydər Əliyev Gəncədə 709 saylı hərbi hissənin döyüş meydanına çevrilmiş ərazisinə baş çəkdi, şəhər sakinləri, hərbi qulluqçularla görüşüb söhbət etdi, yaranmış vəziyyəti gəncəlilərlə birlikdə təhlil etdi. Yerli sakinlər öz xilaskarını gül-çiçəklə, böyük hörmət və ehtiramla qarşıladılar. Əhali küçələrə çıxır, Ulu Öndərə inamını nümayiş etdirir, onunla görüşür, səfərin gəncəlilərə hədsiz sevinc bəxş etdiyini səmimiyyətləri ilə büruzə verirdilər.

Bu səfər ölkəmizi ağır faciələrdən xilas etdi. Topsuz, tüfəngsiz, cangüdənsiz, mühafizəsiz, həm də olduqca çətin dövrdə, respublika rəhbərlərinin heç birinin Gəncəyə gəlmək və yaranmış vəziyyətə aydınlıq gətirmək iqtidarında olmadığı gündə, heç bir dövlət vəzifəsi olmayan, amma xalqın məhəbbətinin zirvəsində duran Heydər Əliyev öz həyatını təhlükəyə ataraq bu şərəfli və son dərəcə ağır missiyanı – qurtuluş missiyasını yerinə yetirdi. Bu riskli və təhlükəli səfər belə bir hikməti xatırladırdı: "Əsl rəhbər xalqın şad günündə də, dar günündə də onunla birlikdə olmalıdır".

Ulu Öndər, həmişə olduğu kimi, Gəncəyə və gəncəlilərə olan hörmət-ehtiramını özünəməxsus səmimiliklə ifadə etdi: "Gəncə Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən diyardır, gözəl bir şəhərdir. Azərbaycan xalqının qədim tarixini, mədəniyyətini, ədəbiyyatını, şeirini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar. Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər".

Ümummilli Lider Heydər Əliyev Gəncənin tarixinə Azərbaycan xalqının qəhrəmanlığını, müdrikliyini, böyüklüyünü nümayiş etdirən tarixi qəhrəmanlıq salnaməsi kimi yanaşırdı və qeyd edirdi: "Gəncə Azərbaycanın, Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən bir diyardır, gözəl şəhərdir. Biz hamımız - harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı - Gəncə ilə, onun qədim və zəngin tarixi ilə fəxr edirik və Gəncənin tarixinə, Gəncənin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərə minnətdarlığımızı bildiririk" [3, s. 19].

Bütün bunlarla yanaşı, Ulu Öndər Heydər Əliyev Gəncənin klassik mütəfəkkirləri kontekstində təkcə Nizami Gəncəvi ilə kifayətlənməyərək qeyd edirdi: "Gəncə təkcə Nizami Gəncəvi ilə məşhur deyil. Gəncə Azərbaycan xalqının çox böyük, dahi şəxsiyyətləri ilə məşhurdur. Gəncə Azərbaycanda ilk dəfə 1918-ci ildə dövlət müstəqilliyini elan edən Xalq Cümhuriyyətinin ilk yerləşdiyi şəhər olubdur. 1918-ci ildə Azərbaycanın mütəfəkkir insanları, vətənpərvər insanları Tiflisdə Azərbaycanın dövlət müstəqilliyini elan ediblər və Azərbaycan

dünyaya müstəqil dövlət kimi bəyan olunubdur. Ancaq o vaxt Bakı düşmən işğalı altında olduğuna görə, onlar Bakıya gedə bilməyib, gəlib Gəncədə yerləşiblər. Və bilirsiniz ki, həmin Xalq Cümhuriyyətinin yaranmasında çox dəyərli fəaliyyət göstərmiş və Xalq Cümhuriyyətinin yaratdığı ilk hökumətin üzvlərinin bir neçəsi məhz gəncəlilər olubdur, Gəncə torpağında doğulmuş, yaşamış və Azərbaycanın müstəqilliyi uğrunda çalışmış insanlar olubdur" [3, s. 19].

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qədim tarixə malik Nizami yurdu Gəncəyə, tarixinə, ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, sənayesinə, bir sözlə-hər bir sahəsinə olan qayğısını, diqqətini, məhəbbətini AMEA Gəncə Bölməsi tərəfindən müxtəlif illərdə nəşr edilən " Heydər Əliyev və Azərbaycan mədəniyyəti" "Elm" nəşriyyatı 2013, "Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə Gəncə" "Elm" nəşriyyatı 2019, "Heydər Əliyev və Gəncə" "Elm" nəşriyyatı 2023 monoqrafiyalarında öz dolğunluğu ilə əks etdirilmişdir.

Professor Şirindil Alışanlı "Nizami Gəncəvi poeziyası Mir Cəlalın nəzəri şərhində" adlı məqaləsində yazır: Mir Cəlal Nizaminin və Füzulinin dilindən danışarkən qeyd edirdi ki, "Nizami şeir məktəbini davam və inkişaf etdirməkdə, Füzulini ilhamlandıran mühüm amillərdən biri də dil məsələsidir. Füzuli bütün başqa azərbaycanlılar kimi, Nizaminin fars dilində yazmağa məcbur olmasına acımış və heyfsilənmişdir". Nizaminin Azərbaycan folkloru, yazılı ədəbiyyatı ilə bağlılığını, başqa sözlə onun poeziyasının türk düşüncəsinin bəhrəsi olduğu ilə əlaqədar Mir Cəlalın dostu və həmkarı H.Araslı Türkiyəyə səfər xatirələrində yazırdı: "...Türk alimləri... Öz sualları ilə Nizaminin türk şairi olması məsələsi üzərində daha artıq dayanmağını istəyirdilər. Mən cavabında bu məsələni misallarla, Nizaminin çox zaman azərbaycanca düşünüb farsca yazdığını və bu beytləri fars şərhçilərinin başa düşmədiyini, hər azərbaycanlıya məlum olan belə ifadələrin hətta Əbdürrəhman Cami kimi böyük bir sənətkara da qaranlıq qaldığını söylədim. Çünki Cami "Xəmsə"yə yazdığı şərhində Nizaminin 350 beytini başa düşmədiyini və qiyamət günü böyük ustadın ətəyindən tutub o beytlərin mənasını izah etməyi xahiş edəcəyini demişdir. Bu beytlərin çoxu hər bir azərbaycanlı üçün aydın olan, xalq həyatından, məişət və folklorundan irəli gələn ifadələrdir" [2, s. 186-187].

Biz də Əbdürrəhman Caminin hisslərinə qapılaraq onun gözlədiyi axirət düçüncəsi öz yerində qalmaqla, deyirik ki, kaş ki, Ulu Öndər Heydər Əliyev sağ olaydı, varisi və davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin onun müəyyənləşdirdiyi strategiya ilə, yol ilə gedərək Azərbaycanı çatdırdığı bugünkü uğurlarını, yüksəliş və inkişafını görəydi, həm də biz Ondan Nizami Gəncəvi ilə bağlı onun bilib, bizim bilmədiyimiz sirləri, xüsusilə 11 yaşı olarkən Gəncədə Nizami Gəncəvini hansı hisslərlə düşündüyünü, ziyarət etdiyini, nələrin şahidi olduğunu soruşaydıq. Çünki Ulu Öndərin Nizami Gəncəviyə olan sirli münasibətini, hisslərini, yaşantılarını 2000-ci il 24 may tarixində Gəncə şəhərinə səfəri zamanı dahi Nizami Gəncəvinin məqbərəsini ziyarət edərkən mavi ekranlardan izlədik və gördük.

Əlbəttə ki, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvini Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə bağlayan maddi-mənəvi bağlar bu anlayışlarla bitə bilməz. Çünki **"**Mən qürur hissi keçirirəm ki, Nizaminin yolunda az iş görməmişəm. Onun xatirəsini əbədiləşdirmək, irsinin daha da təbliğ olunması, yayılması üçün, kitablarının nəşri üçün çox iş görmüşəm. Buna görə də mən Nizami Gəncəvinin qarşısında öz borcumu yerinə yetirmişəm**"** [9, 1] deyən Ulu Öndərin Nizami Gəncəvi bağlılığı daha dərin mətləblərə əsaslanır.

Akademik İsa Həbibbəyli yazır: " Həqiqətin "Qoy ədalət zəfər çalsın!" müsahibəsində ictimai ədalət məsələlərini siyasi-ideoloji proseslərlə əlaqəli şəkildə təqdim etməklə Heydər Əliyev bu sahədə övləti daha da irəli aparmaq üçün müdrik qərarlar qəbul etməsi baxımından Nizami Gəncəvi irsindən öyrənməyin faydalı və əhəmiyyətli olduğunu nəzərə çatdırmışdır.

Bu cəhətdən Heydər Əliyevin öz müşahibəsində Nizami Gəncəvidən nümunə gətirdiyi bədii parçalar ictimai quruluşun xarakterindən aslı olmayaraq, bütün dövrlər və zamanlar üçün əhəmiyyətli və aktual ola biləcək aşağıdakı hikmətli misralardan ibarət idi":

Təmkinli ol, lovğalığı, sərvəti ,
At, yanıb tonqalda qoy külə dönsün.
Əgər istəyirsən, ürəyin gülə ,
Qoyma pis niyyətlər fikrinə gələ!
Nalayiq əməllər görsən harada,
Odlu nəfəsinlə yandır, məhv elə [4, s. 817].

Beləliklə, bildiyimiz qədər də bilmədiyimiz yaşanan bütün bu sirli və açıq olaylar, dərin mətləblər dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvini Azərbaycan xalqına bağlayan maddi-mənəvi bağlar olmuşdur ki, bunlar da illər keçdikcə hər biri hər birimiz üçün agah olacaqdır!

ƏDƏBİYYAT


1. Allahverdiyeva Z. "Heydər Əliyev və Azərbaycan nizamişünaslığı". "Azərbaycan" qəzeti. 12 dekabr 2021.
2. Alışanlı Ş. "Nizami Gəncəvi poeziyası Mir Cəlalın nəzəri şərhində"), ("Azərbaycan ədəbiyyatşünaslığı". Nizami Gəncəvi ili. Xüsusi buraxılış. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. 2021.
3. Əliyev F. AMEA Gəncə Bölməsi "Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə Gəncə". "Elm" nəşriyyatı, Gəncə 2019.
4. Həbibbəyli İ. "Nizami Gəncəvi ədəbi irsi: Heydər Əliyevdən İlham Əliyevə", "Nizami Gəncəvi: həyatı və yaradıcılığı" monoqrafiyası. Bakı."Elm" 2021.
5. Kərimli T. "Heydər Əliyev və klassik irs", Bakı, "Elm" 2023
6. Qasımov H. "Mənə çinar gətirin, çinar ucalıq rəmzidir". "Xalq qəzet". 6 oktyabr, 2022
7. Muradov Z. "Mən Gəncədə çinar əkəcəyəm". "525-ci qəzet". 12 dekabr. 2018
8. Muxtarov Ə. "Əhməd Cavadın Gəncəm hey şeiri Gəncənin qəhrəmanlıq salnaməsi kimi". Əhməd Cavadın 130 illik yubileyinə həsr edilmiş konfransın materialları. AMEA Gəncə Bölməsi. "Elm" nəşriyyatı. 2022.
9. Muxtarov Ə. "Azərbaycan nizamişünaslığının inkişafında Heydər Əliyev mərhələsi". AzərTac. 9 may 2021)


УДК 82-1. 512. 162

*Кандидат наук. А.Г.Мухтаров*
*Гянджинский филиал НАНА*
*Директор Центра Низами Гянджеви*

МАТЕРИАЛЬНЫЕ И ДУХОВНЫЕ СВЯЗИ, СВЯЗЫВАЮЩИЕ ВЕЛИКОГО ЛИДЕРА ГАЙДЕРА АЛИЕВА С МОЛОДЫМ И НИЗАМИ ГЯНДЖАВИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Низами Гянджеви, Гейдар Алиев, Гянджа, платан, история

Национальный лидер азербайджанского народа Гейдар Алиев был глубоко связан с видным азербайджанским поэтом и философом Низами Гянджави как материально,

так и духовно. Восприятие Гянджи как исторической местности, символизирующей богатое наследие азербайджанской истории, литературы и культуры, подчеркивало глубокую приязнь Гейдара Алиева к этому городу. Это чувство легло в основу неизменной любви Гейдара Алиева к личности и наследию Низами Гянджави, коренящимся в отдельной идеологической концепции. Особенно отметим, что в период с чутким управлением советской империей национальными идеологическими вопросами, памятное мероприятие Гейдара Алиева, посвященное неравному юбилею Низами Гянджави, признается значимым вкладом в благо народа Азербайджана. В статье разъясняются события, связанные с этим контекстом, с особым акцентом на ключевые моменты в жизни Гейдара Алиева, включая его формативные годы в Гяндже, последующие визиты в качестве главы страны и паломничество к мавзолею Низами Гянджави.

UDC 82-1. 512. 162

*PhD. A.H.Muhtarov*
*Ganja branch of ANAS*
*Director of the Nizami Ganjavi Center*

MATERIAL AND SPIRITUAL TIES CONNECTING THE GREAT LEADER HAYDER ALIYEV TO THE CITY OF GANJA AND NIZAMI GANJAVI

*SUMMARY*

*Key words:* Nizami Ganjavi, Heydar Aliyev, Ganja, plane tree, history

The National Leader of the Azerbaijani people, Heydar Aliyev, was intricately bound by profound material and spiritual connections to the eminent Azerbaijani poet and philosopher, Nizami Ganjavi. Heydar Aliyev's perception of Ganja as a historic landscape representing the rich tapestry of Azerbaijani history, literature, and culture underscored his deep-seated appreciation for the city. This sentiment formed the basis of Heydar Aliyev's enduring affection for the personality and legacy of Nizami Ganjavi, rooted in a distinct ideological framework. Notably, during an era marked by the Soviet Empire's delicate management of national ideological affairs, Heydar Aliyev's commemoration of the uneven jubilee of Nizami Ganjavi is recognized as a notable service to the people of Azerbaijan. The article elucidates the unfolding events within this context, particularly focusing on key moments in Heydar Aliyev's life, including his formative years in Ganja, subsequent visits as the head of the country, and his pilgrimage to the mausoleum of Nizami Ganjavi.

***Daxil oldu: 15.09.2023-cü il***